*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 1, 2026*
*Səh. 132-140*

https://doi.org/10.62837/2026.1.132

**KÖNÜL HƏSƏNOVA**
**Filologiya üzrə fəlsəfə doktoru**
**AMEA Nəsimi adına Dilçilik institutunun doktorantı**
**ADPU-nun Filologiya fakültəsinin dekanı**
**Konul.hasanova@adpu.edu.az**
**https://ORCİD.org/0001-0001-8795-252X**

# ŞEİR MƏTNLƏRİNİN SUBSTANTİVLƏŞMİŞ FEİLİ SİFƏTLƏRİNDƏ QƏNAƏT HADİSƏSİ

**Xülasə**: Feili sifət tarixən formalaşdığı dövrlərdən üzü bəri özündə ikili semantikanı daşıya-daşıya bir qrammatik kateqoriya kimi günümüzə gəlib çıxmış və onda həm sifətə, həm də feilə məxsus əlamət və xüsusiyyətin mövcud olması kulturoloji aspektdə "əlamət" konseptini gerçəkləşdirmişdir. Feili sifətin sifətlə və feillə bağlı oxşar əlamətləri barədə dünya dilçiliyində, o cümlədən, Azərbaycan linqvistik sistemində çoxlu sayda tədqiqat işlərinin aparılmasına baxmayaraq, onda substantivləşmə hadisəsi və bu prosesdə baş vermiş qənaət prinsipi haqqında araşdırmalar demək olar ki, yoxdur. Halbuki feili sifət feil və sifətin qrammatik kateqorial semantikalarını ifadəetmə prosesində isimləşərək, substantivləşərək qənaət prinsipini də özündə ehtiva etdirir. Lirik "mən"in nitq sferasında "oxuyan müğənni" əvəzinə sadəcə olaraq "oxuyan", "yazan tələbə" əvəzinə sadəcə olaraq "yazan", "döyüşən şəhər" əvəzinə sadəcə olaraq "döyüşən", "danışan müəllim" əvəzinə sadəcə olaraq "danışan" və d. Minlərlə ifadənin bir söz şəklində inikası substantivləşmə nəticəsində qənaət prinsipini hasilə gətirir ki, məqalədə bu tip tərkib və sözlərin qarşılıqlı semantik münasibətlərindən danışılır və bu aspektdə qənaətin də idrakda yaratdığı inikas formalarına diqqət yetirilir.

**Açar sözlər:** əşya, predmet, hərəkətin əlamətləri, qənaət hadisəsi, substantivləşmə, buraxılan predmet, "əlamət" konsepti.

**KONUL HASANOVA**

# THE PHENOMENON OF ECONOMY IN SUBSTANTIVIZED PARTICIPLES IN POETIC TEXTS

**Abstract:** The participle, from the historical stages of its formation to the present day, has reached us as a grammatical category that carries a dual semantics, embodying features and characteristics inherent both to the adjective and to the verb. In a culturological aspect, this duality actualizes the concept of "attribute." Although numerous studies have been conducted in world linguistics, including within the Azerbaijani linguistic system, on the similarities between participles and adjectives and verbs, research on the phenomenon of substantivization and the principle of economy manifested in this process is almost nonexistent. However, in the process of

expressing the grammatical categorical semantics of the verb and the adjective, the participle becomes nominalized substantivized and thereby incorporates the principle of economy. In the speech sphere of the lyrical "I," instead of expressions such as "a singing singer," "a writing student," "a fighting city," or "a speaking teacher," the forms "the one who sings," "the one who writes," "the one who fights," "the one who speaks," etc. are used. The reflection of thousands of expressions in the form of a single word as a result of substantivization gives rise to the principle of economy. This article discusses the mutual semantic relations of such constructions and words and, from this perspective, draws attention to the forms of reflection created by economy in cognition.

**Keywords:** object, entity, attributes of action, principle of economy, substantivization, omitted entity, concept of "attribute".

**Явление экономии в субстантивированных причастиях поэтических текстов**

**Аннотация:** Причастие, начиная с исторических этапов своего формирования и вплоть до современности, дошло до нас как грамматическая категория, несущая в себе двойную семантику и объединяющая признаки, присущие как прилагательному, так и глаголу. В культурологическом аспекте данная особенность актуализирует концепт «признак». Несмотря на то что в мировой лингвистике, в том числе в азербайджанской лингвистической системе, проведено значительное количество исследований, посвящённых сходным признакам причастия с прилагательным и глаголом, проблема субстантивации и принципа экономии, реализующегося в этом процессе, практически не изучена. Между тем причастие, выражая грамматико-категориальные семантики глагола и прилагательного, в процессе номинализации, субстантивации, включает в себя и принцип экономии. В речевой сфере лирического «я» вместо сочетаний «поющий певец», «пишущий студент», «сражающийся город», «говорящий учитель» употребляются формы «поющий», «пишущий», «сражающийся», «говорящий» и др. Отражение тысяч выражений в форме одного слова в результате субстантивации порождает принцип экономии, в связи с чем в статье рассматриваются взаимные семантические отношения подобных слов и словосочетаний, а также обращается внимание на формы отражения, создаваемые экономией в когнитивной сфере.

**Ключевые слова:** предмет, объект, признаки действия, явление экономии, субстантивация, опущенный предмет, концепт «признак».

Feili sifət törəmə nitq vahididir və *"bu səbəbdən feili sifətə feil törəməsi kimi baxmaq çox çətindir, lakin müasir feili sifətin dəyişikliklərə uğraması faktı da*

*şübhəsizdir. Bunun nəticəsi olaraq bəzi feili sifət formalarını feilin törəmələrinə aid etmək mümkündür"* [1, s.528]. Feili sifətin tədqiqinə başlanıldığı dövrlərdən rus və Azərbaycan filologiyasında o, hibrid nitq hadisəsi kimi öyrənilmişdir. *"Feili sifətlər bilavasitə feildən gələn və sifət sistemində tətbiq olunan "forma axınıdır"* [2, s.220].

Feilə və sifətə oxşar əlamətlərinə görə, feili sifətlər zəngin qrammatik kateqoriyalaşma xüsusiyyətlərinə malikdir. Belə ki, bu tərkiblərin hər iki tərəfi hal, şəxs, kəmiyyət, zaman, inkar paradiqmalarının morfoloji göstəricilərini qəbul edərək, poeziyada lirik "mən"in duyğu və düşüncələrinin hərtərəfli verilməsinə yardım göstərir və kateqoriyalaşmanın bütün sistemlərində qənaət hadisəsi özünü təzahür etdirir. Məs:

*Rəzil oldu bizi qüvvə saymayanlar,*
*Qanda batdı qan içməkdən doymayanlar,*
*Bu milləti yıxılmağa qoymayanlar,*
*Dünyada hər anınıza salam olsun!* [3, s.35].

Bu bəndin üç misrasında qafiyə mövqeyində feili sifətlərdən istifadə edilmiş və hər üçündə "adamlar" sözünə qənaət olunmuşdur. Qənaəti yerinə bərpa etsək, substantiv feili sifətlərin tərkibi bütöv şəkildə bu cür şəkillər alacaqdır: qüvvə saymayan adamlar; qan içməkdən doymayan adamlar; yıxılmağa qoymayan adamlar və bunların hər biri ayrı-ayrılıqda feilin inkar formasındadır. Bu formalar oxucunun hiss və duyğularında mənfi və müsbət emosiyalar yaradır, başqa sözlə desək, birinci və ikinci misralarda mənfi, üçüncü misrada isə müsbət emosiya formalaşdırılır. Qənaət göstəricisi (-lar, -lər) mexaniki olaraq buraxılmış "adamlar" sözünə transformasiya edilir. Substantivləşmiş feili sifətlər də əksə məqamlarda təyin olunan tərəfin buraxılması ilə qənaət hadisəsi ərsəyə gətirilir. *"Feili sifətlər kimi təyin olunanı itirdikdə isimləşir və cümlədə təyin kimi deyil, mübtəda, tamamlıq və ismi xəbər vəzifəsində işlənir. Feili sifətlər isimləşərkən hal, mənsubiyyət, kəmiyyət, xəbərlik şəkilçilərini qəbul edir, bəzən isə heç bir vasitə olmadan belə, isim kimi çıxış edir"* [4, s.368].

Poetik örnəklərin dilində ən intensiv çıxış edən feili sifətin substantivləşmiş şəkilləridir, çünki bu formalar qənaət prinsipinə uyğunlaşdırılmış ən universal strukturlar olub, şeir dili üçün olduqca sərfəlidir. Məs:

*Adı qalar zaman-zaman şər doğanın,*
*İzi qalmaz hər olanın, hər doğanın* [3, s.35].

İsimin yiyəlik hal şəkilçisi ilə işlənən feili sifətlərdə "ana" və "övlad" sözlərinə qənaətin edilməsi təsəvvür aparatında çox aydın şəkildə əks olunur. Birinci misrada təsdiq, ikincisində isə onun inkarlaşması reallaşdırılmış və əks-zidd qütblüklər gerçəkləşdirilmişdir, qənaətin yaranmasına da bu linqvistik amillər səbəb olmuşdur.

Substantivləşmiş feili sifətlərdə istər sifətin, istərsə də feilin xarakterik xüsusiyyətlərinin çoxluğundan asılı olmayaraq, biri predmetin, əşyanın, digəri isə

hərəkətin tərzinə xidmət göstərir və hər ikisində "əlamət" konseptini əmələ gətirir. "Əlamət" konsepti isə koqnitoloji strukturda özünə möhkəm yer tutmuş linqvokulturoloji ölçüdür. Əşya və predmet daha çox qrammatik, semantik, psixolinqvistik istiqamətlərdə hərəkətlə üzvi şəkildə əlaqələndiyinə görə, onun substantivləşmiş şəkillərinə real zəmin yaradır və beləliklə də həm qənaət hadisəsi, həm "əlamətin" isimləşmiş formaları əmələ gəlir və bunlar "əlamət" konseptində münasibətləri tənzimləyir. Məs:

*Züml edənin canı düşdü zillətə,*
*Uca millət sənə ad-san yaraşır* [3, s.49].

Birinci misrada "zülm edən" isimləşmiş feili sifətinin ən yıöcam şəkli "cəllad" sözüdür və onu həmin tərkiblə birlikdə də işlətmək olur: "zülm edən cəlladın" şəklində və belə olan halda "cəllad" sözü feili sifətin paradiqması kimi çıxış edir və həmin sözün əlamətini təyin edir. "Zülm edən" isimləşmiş feili sifətinin dilimizdə sinonim variantları da xeylidir: zülmkar, başkəsən, can alan, öldürən, işgəncə verən, qaniçən və s.

Bəzi hallarda şeir mətnlərində isimləşmiş feili sifətlərdən "-dır" xəbərlik şəkilçisinə qənaət edilir və bu da hər şeydən əvvəl mətnin poetexnik tələblərindən irəli gəlir, hökmün morfoloji göstəricisi beyin aparatında inikas olunur. Məs:

*Nağıqızı dosta, haya yetənin*
*Qardaşının yollarında bitənin* [2, s.75].

Qafiyə mövqeyindəki isimləşmiş feili sifətlərdə (yetənin, bitənin) xəbərlik şəkilçisinin ixtisarı ilə qənaət yaradılmış, misralar səslənmə cəhətindən asanlaşdırılmışdır.

Ritorik suallı misralarda bəzi məqamlarda şəxsləndirilmiş feili sifətlərin önündəki isim buraxılmaqla yığcam struktur əldə edilir. Məs:

*Hanı dərdə salan, hanı?*
*Gəlib eşitsin nalanı* [3, s.82].

Birinci misranın beyində əks olunduğu şəkil əslində belədir: "hanı dərdə salan aşiq hanı" və bu misrada iki dəfə "hanı" sual elementinin təkrarı fikrə ekspressivlik bəxş etmiş "aşiq" sözünün ixtisarı ilə misra artıq sözdən məhrum edilmiş və o, olduqca zəruri şəkildə yüngülləşdirilmişdir. Birinci misrası sual, ikincisi cavab məzmunu üzərində qurulan şeir parçasında bəzən "söz" leksik vahidinə qənaət edilməklə lakonik deyim tərzi formalaşdırılır və buraxılan üzvün isimləşmiş feili sifətlərdə onların qarşı hissəsində olur. Məs:

*Daha sərrast deyilmi?*
*Dodaq deyən, göz deyən* [3, s.82].

İkinci misranın təxəyyüldə yaratdığı şəkil belə inikas olunur: "dodaq deyən söz, göz deyən söz" – belə olan təqdirdə aydın şəkildə sezildiyi kimi, misra artıq elementlərlə yüklənmiş vəziyyətdə olur və deməli qənaət poetik mühitdə artıqlığın, lazımsızlığın qarşısını alır, şeiri nizamlı şəkillərə salır. Bu tip linqvistik qənaət

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 1, 2026*
*Səh. 132-140*

hadisəsi morfosintaktik quruluşun variativliyindən irəli gəlir və *"qrammatik strukturun variativliyi, necə deyərlər, iki inkişaf istiqamətini müəyyənləşdirir. Bu istiqamətlərdən biri linqvistik tipologiyadır. Linqvistik tipologiya üçün parametrləşmə əsas sayılır. Parametrləşmə - təbii dilin qrammatik obrazıdır, həmişə aktivdir, müxtəlifdir"* [5, s.142]. Deməli, şeir mətnlərində isimləşmiş feili sifətlər ikili strukturda çıxış edərək həm konkret öz şəklini, həm də qənaət edilmiş formalarını özündə ehtiva etdirir və şeirin yığcam, qısa, lakonik qəliblərdə təqdimi üçün ən variativ struktur qənaətli şəkil hesab olunur. Morfoloji göstəricilərlə sintaktik kateqoriyalar bir-biri ilə tarix boyu qarşılıqlı əlaqə və inkişafda olmuşdur. "*Morfologiyanın strukturunu, nitq fəaliyyətində yerini öyrənmək üçün, hər şeydən əvvəl, onun sintaksislə sərhədlərini müəyyənləşdirmək vacibdir"* [6, s.22]. Feili sifətlərin isimləşməsi konkret olaraq morfoloji kateqoriyalar sisteminə aid olduğuna görə onlardakı qənaət prinsipini struktur-semantik sintaksisin metodu və qanunları əsasında müəyyənləşdirmək lazım gəlir.

Çox nadir hallarda poeziyanın misra strukturlarında punktuasiya göstəriciləri metaforikləşdirilərək isimləşmiş feili sifətlər kimi funksionallaşdırılır və xeyli sayda qənaətə imkan verilir. Məs:

*İki nöqtə deyir ki,*
*Məndən sonra gələn var*
*Gələnlərdən sonrasa*
*Çox nöqtələr danışar* [3, s.79].

Bu şeir parçasının hər bir misrasında metaforikləşmiş və eyni zamanda isimləşmiş feili sifətin də təsəvvür bucağından qənaət hadisəsi özünü təzahür etdirir. Belə ki, birincidə "iki nöqtə" ifadəsindən sonra "durğu işarəsi" kəlməsi, ikinci misrada "gələn" feili sifətinin qarşısında "söz" kəlməsi, üçüncü misrada feili sifətin qarşısında yenə də "sözlər", dördüncü misrada "çox nöqtələr" sözündən sonra "durğu işarəsi" ifadəsi buraxılmış və olduqca mənalı – məzmunlu, düşündürücü, bədii deyim ərsəyə gətirilmişdir. Üçüncü misrada "gələnlərdən" isimləşmiş feili sifəti həm kəmiyyət, həm də ismin çıxışlıq hal şəkilçilərini qəbul edərək, qrammatik cəhətdən kateqoriyallaşmışdır. *"Kəmiyyətləşmənin həm məntiqdə, həm də dildə zəruri anlayış olduğunu anlamaq üçün düşünə biləcəyimiz bir obyekt adlandırılan hər hansı bir ümumi ismin eyni cisimlərin cəmi əlaqəli olduğunu nəzərə almalıyıq. Kəmiyyət, düşündüyümüz cəmin nisbətini ölşmək üçün bir vasitədir"* [2, s.226].

Feili sifətin isimləşməsi prosesində hal şəkilçisini qəbul etməsi dildə qanunauyğun hallardan biri olub, qənaət hadisəsinin yaranmasına da şəraiti gerçəkləşdirir. *"Hissi qavrayış, fiziki və ruhi vəziyyət semantikası olan feillər üçün çıxışlıq hal, təsir və vəziyyətin mənbəyini, motivasiya edən səbəbi bildirir"* [8, s.188].

İsimləşmiş feili sifətlərdə müəyyən bir sözün, ifadənin buraxılması və onun təsəvvürdə canlandırılması poetik obrazlılığa qan, can, nəfəs verir, estetik

informasiyanın qısa biçimlərdə səmərəliliyini xeyli dərəcədə yüksəldir, oxunuşu asanlaşdırır, şair ilə oxucu arasında bədii ünsiyyəti gözəlləşdirir. Məs:

*Orda ürəyimi atsam da sənə*
*Ürəkdə olanı deyə bilmədim* [3, s.90];
*Bilirəm, qeydinə qalanın çoxdur.*
*Amma mən ömrümü sənə verərdim* [3, s.90].

Substantivləşmənin qanunauyğun tələbi ilə birinci nümunədə "ürəkdə olanı" birləşməsindən qabaqdakı "söz", yaxud da "fikir" kəlmələri ixtisar edilmiş, ikincisində isə "qeydinə qalanın" frazeoloji birləşməsinin önündəki "adam", yaxud da "şəxs" kəlmələri ixtisarlaşmış, nəticədə, poetik informasiya sintaktik qənaət biçimlərində tərtibini tapsa da, təsəvvürdə bütöv şəkillərini əks etdirir, real kommunikativliyin qənaətli şəklini verdiyimiz nümunələrdə canlandırır. Belə qənaətli cəhətlər poetik deyim və düşüncənin oxucuya ötürülməsi keyfiyyətlətrini də asanlaşdırır, mətnin ritmikasını da vüsətli və cəlbedici şəklə salır.

Sintaktik cəhətdən tamamlıq kimi çıxış edən isimləşmiş feili sifətlərə poetik sferada daha çox rast gəlirik. Məs:

*Olub keçənləri saxlar yadında,*
*Düşmən qabağında məğrur görünər* (3, 92).

Birinci misradakı "olub keçənləri" tərkibi tamamlıq kimi funksionallaşmış, "nəyi" sualına cavab vermiş və 4 qrammatik əlamətin göstəricilərini özündə ehtiva etdirir: 1) feili bağlama (olub); 2) feili sifət (keçən); 3) kəmiyyət kateqoriyasının morfoloji göstəricisi (-lər); 4) ismin hal şəkilçisi (-i) və bütün bunlar bir tərkibdə özünü nümayiş etdirmək həm feili sifətin isimləşməsi, həm də həmin tərkibin qarşısında təsəvvür edilən "işləri" sözünün qənaətinə şərait yaratmışdır. "Olub keçənləri" ifadəsində feili bağlama "-ub" şəkilçisi ilə düzələrək feili sifətin qabağında çıxış etmişdir və burada hərəkətin tərzini bildirir. *"-ıb$^4$ şəkilçili feili bağlama formasının əsas mənası tərzi hərəkətdir və bu qrammatik kateqoriya xüsusi sözdüzəldici şəkilçiləri birləşməsi vasitəsilə yaranır"* [9, s.460]. "Olub keçənləri" tərkibində qrammatik istiqamətdə kateqoriyalaşma çoxluq təşkil etsə də, həmin birləşmə struktur-semantik cəhətdən yalnız mətndə tamamlığın vəzifələnməsini şərtləndirir.

İsimləşmiş feili sifətlərdə tez-tez şəxsə aid leksik vahidlərin ixtisarlaşması normativləşmə prinsipi ilə bağlı olub, dilin məntiqi aspektini özündə qərarlaşdırır və fikir-ifadə tutumunda maksimum yığcamlıq hasilə gətirir. Məs:

*Kim ilədi haqq-hesabı, bilinməz,*
*Şər olanın kələyindən sallanar* [3, s.92].

"Şər olanın" feili sifətinin önündə ismin yiyəlik halında "kəsin", yəni hər hansı bir şəxsin sözünün buraxılması ilə isimləşmə hadisəsi yaranmış və nitq qurumunda qənaət hüququ da özünə yer tapır və bu, deyim strukturunda qısalaşmanı reallaşdırmaq üsuludur. Şeirin növbəti bəndində feili sifətlərdə isimləşmə hadisəsi

qalmaqla, "kəs" sözü işlədilir və qənaət prinsipi aradan qaldırılır ki, bunlar da məntiqi cəhətdən tam şəkildə qəbullanandır. Məs:

*Taleyini göydə gəzən kəslərin,*
*Muncuq təkin baxta düzən kəslərin,*
*Dərman gəzib dərdə dözən kəslərin,*
*Umudunun dirəyindən sallanar* [3, s. 92].

Bəzən şeir misralarında isimləşmiş feili sifətlərin orta pozisiyasında müəyyən bir leksik vahidə qənaət edilir və həmin leksik göstərici mətnə müvafiq tərzdə müəyyənləşdirilir.

*"Ver" - deyənin kisəsidi bu dünya,*
*"Can" – deyənin masasıdı bu dünya* [3, s.92].

"Ver-deyən", "can-deyən" feili sifətlərinin orta hissəsində təsəvvürdə hər iki misrada "sözü" ismin təsirlik halında işlənməli olan leksik vahid inikas olunur və məntiqi-hissi ekspressivlik doğurur. Bu üsul beyində məna uyarlıqlarının assosiativ əlaqələrindən irəli gəlir və güclü ekspessivlik qarşılaşmasından yaranış tapır.

Bəzən şeirdə ölçüləşmə meyarlarına düzgün riayət etmək, lazımsız söz təkrarına yol verməmək məqsədilə isimləşmiş feili sifətlərin əvvəlində təsəvvür edilən leksik vahid elipsis adlanır. Məs:

*Yorulmadın, zəhmət ilə qazandın,*
*Yerə düşən alın tərin göyərsin* [3, s.99].

İkinci misranın əvvəlində "alnından" ismi çıxışlıq halındakı söz buraxılmış və lazımsız təkrarın qarşısı alınmış və əgər həmin söz çıxış etsəydi misra belə alınardı: "alnından yerə düşən alın tərin göyərsin"- şəklində və bu cür olan halda misranın söz yükü ağır təsir bağışlayardı. Struktur uyarlıqların pozulması qənaət qanunu üçün məqbul və müsbət hal hesab edilmirş Nida - əmr qovuşuq intonasiyalı misralarda "söz" leksik vahidinin ixtisarı şeir dilində aktiv müşahidə edilir və eyni zamanda qənaəti də özündə əks etdirir. Məs:

*İçindəki duyğuların dil açdı,*
*"Yetər!"-dedin ki, millətim əl açdı* [3, s.105].

"Yetər" söz – cümlə şəkilli bir sintaktik fiqurdur və ondan sonra "sözü" leksemin buraxılması misrada struktur qənaətin əmələ gəlməsinə səbəb olmuşdur ki, misraarası mövqelərdə qənaət hadisəsi əksər məqamlarda bu şəkildə doğulur.

Bəzən bir şeir bəndində həm sual əvəzlikləri, həm də isimləşmiş feili sifətlər bir-birini izləyərək çıxış edir ki, belə məqamlarda sualların köməyi sayəsində isimləşmiş cümlə üzvünü müəyyənləşdirmək olur. Məs:

*Bu taledir, qismətindən qopan kim,*
*Deyib ağız büzənləri görmüşəm,*
*Çıraq ilə hikmətini tapan kim,*
*Tapıb sapa düzənləri görmüşəm* [3, s.102].

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 1, 2026*
*Səh. 132-140*

Dil şüurunda belə əks olunur ki, bu bəndin birinci və üçüncü misralarında "qopan" və "tapan" sözləri əsil feili sifətlər kimi, ikinci və dördüncüsündə isə isimləşmiş feili sifətlər kimi çıxış etmiş, poetik fikrin obrazlılığına uyğun gələn ritmik cəhətləri nizamlamış, bədii təfəkkürü zənginləşdirmiş, milli dilin gözəlliyini nümayiş etdirmişdir. İkinci və dördüncü misralarda isimləşmiş feili sifətlərin qarşısında "şəxslər, adamlar" sözlərindən birinə qənaət edilməsi də dil-şüurunda aydın şəkildə sezilir. Poeziyada söz artıqlığından, sözə qənaətin həm müsbət, həm də mənfi cəhətlərindən danışan tənqidçi M.Cəfərov da doğru olaraq vurğulayır ki, *"Nə zaman ki, sərbəst şeir forması sözçülüyü, uzunçuluğu, əhvalatçılığı, bayağı, kasıb qafiyələri, qafiyə xatirinə lazım olmayan sözlər işlətməyi, yersiz dəbdəbə və təntənəni aradan qaldırır, sözə qənaət yaradır, milli dilin gözəlliyini, axıcılığını, musiqisini, melodiyasını qoruyur, dilin qüdrətini ifadə edir, şeiriyyəti, emosionallığı gücləndirir, o yerdə bu forma gözəldir, üstündür. Harda ki, forma şeiri ağırlaşdırır, fikri düyün salır, milli dilin gözəlliyinə xələl gətirir, uzunçuluğa, sözçülüyə, uydurma obrazlılığa çevrilir, o yerdə üstünlüyünü itirməklə şeiriyyətə də zərbə vurur, bədii təfəkkürü kasıblaşdırır, poeziyanı isə qeyri bir poeziyaya, çox asan bir peşəyə çevirir"* [10, s.151].

Poeziyanın feili sifətlərin substantivləşmə qatında sözə qənaət idraki məna kəsb edən, yəni dərkedilən linqvistik materiallardır və mətndə əlaqələndiyi sözlərlə funksional üslub yaratmaq məqsədinə xidmət göstərir, poetik düşüncənin estetik duyum qanunudur. İsimləşmə olmasa, feili sifətlərdə linqvistik qanun demək olar ki, poeziyanı əhvalatçılığa, sözçülüyə aparıb çıxarır və bununla da şeirin ritmikliyindən danışmağa dəyməz, oxucunun duyğu və düşüncəsini korlamır. Məs:

*Qədirbilməz olanını itirər,*
*Olmayanı gəzənləri görmüşəm!* [3, s.102].

Birinci misrada iki feili sifət (qədirbilməz, olanını) ardıcıl gələrək müxtəlif morfoloji göstəricilə (-maz, -an) qəbul edərək isimləşmiş və 2 qənaət halı özünü təzahür etdirmişdir: 1) qədirbilməz adam; 2) olan şeyini sözsüz ki, "olan" feili sifətin pretmetləşmə prosesində 3 dəfə ismin təsirlik hal şəkilçisini qəbul etməsi misranın ritmik yükü az olan, ağırlaşdırılmış, əslində "olanına" şəkildə, yəni ikiqat şəkilçi ilə verilsəydi, bu nöqsanlı hadisə baş verməzdi.

Bəzən misra strukturlarında feili bağlama ilə fieli sifət qoşa söz şəklində isimləşmiş halda işlənərək, poetik təhkiyəni təravətli edir, fəlsəfi məzmun üçün incə duyğuları tərənnüm müstəvisinə gətirir. Məs:

*Sınağına düşüb-çıxan ayazdı,*
*Sinə gərib dözənləri görmüşəm* [3, s.108].

Hər iki misrada feili bağlama+feili sifət modelində çıxış edən substantivləşmiş birləşmələrdə "adamlar" sözünə qənaət edilmiş, insan taleyi haqındakı poetik fikirlər fəlsəfi dona bürünərək ifadə olunmuşdur.

**Nəticə**: İsimləşmiş feili sifətlərdə linqvistik qənaət poeziyanın qanadlarında dil-şüur sindromunda aydın cizgilərlə əks olunur, söz sənətkarının linqvistik materiallardan düzgün rəftarından xəbər verir, lirik "mən"in poetik düşüncələri bir qayda olaraq maksimum bədii-struktur planında təqdim olunur, bədii mühitdə digər cümlə üzvləri ilə çulğalaşmış fonda yığcam vəhdət və intensivlik doğurur.

## Ədəbiyyat

1. Məşədiyev A.Ə. Feilin təsriflənməyən formalarının funksionallaşması. Türk dillərinin funksional morfologiyası. I cild, Bakı, "Elm və təhsil", 2024, s. 520-614.
2. Мещининов И.И. Члены предложения и части речи. Ленинград, «Наука», 1878.
3. Nağıqızı Mahirə. Lövbər adam. Bakı, "ADPU", 2022, 255 s.
4. Əliyev V.U. "Feili sifət" Müasir Azərbaycan dili, Morfologiya, Bakı, "Elm", 1980, s. 364-378.
5. Kazımov İ.B. Funksional morfologiyaya giriş: əsas anlayışları və perspektivləri, "Türk dillərinin funksional morfologiyası", Bakı, "Elm və təhsil", 2024, s. 31-161.
6. Kazımov Q.İ. Müasir Azərbaycan dili. Sintaksis. "Ünsiyyət", Bakı, 2000, 496 s.
7. İsgəndərzadə A.T. "İsmin kəmiyyət kateqoriyasının funksionallaşması". Türk dillərinin funksional morfologiyası. Bakı, "Elm və təhsil", 2024, s. 214-233.
8. Hüseynova G.Ə. "İsmin hal kateqoriyasının funksionallaşması". Türk dillərinin funksional morfologiyası. Bakı, "Elm və təhsil", 2024, s. 161-191.
9. Баскаков И.А. Каракалпакский язык. Фонетика и морфология. Т.2, ч.1., Москва, издательство Академии наук СССР, 1952.
10. Cəfərov M.C. Sənət yollarında. Bakı, "Gənclik" 1975, 368 s.

**Rəyçi: akademik Nizami Cəfərov**